# Barselonada Azərbaycan Evi




***Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti"nin təşəbbüsü ilə İspaniyanın Barselona şəhərində Azərbaycan Evinin açılış mərasimi keçirilib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, pndemiya ilə bağlı mövcud karantin qaydalarına uyğun şəkildə keçirilən tədbirdə Kataloniyada yaşayan azərbaycanlılar və ölkəmizə dost münasibəti bəsləyən müxtəlif xalqların icma üzvləri iştirak ediblər.

Tədbir "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti"nin 5 illik fəaliyyətini və Azərbaycan Evinin qurulması prosesini özündə əks etdirən videoçarxların nümayişi, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun bu mühüm hadisə münasibətilə İspaniya azərbaycanlılarına təbrik müraciətinin oxunması ilə başlayıb.

Tədbirdə "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti"nin sədri və İspaniya Azərbaycan Evinin rəhbəri Kərim Kərimov, cəmiyyətin İdarə Heyətinin üzvü Nərmin Salayeva, Gürcüstanın Barselonadakı baş konsulu Ketevan Gogolaşvili çıxış ediblər. Natiqlər Azərbaycan Evinin fəaliyyətinin Barselonada və ümumilikdə İspaniyada yaşayan azərbaycanlıları bir araya gətirmək, onları əlaqələndirmək, milli dəyərlərimizi və tarixi reallıqlarımızı təbliğ etmək baxımından yüksək qiymətləndiriblər. Azərbaycan Evinin Barselona şəhərinin multikultural simasında özünəməxsus yer tutacağı, burada azərbaycanlı və digər icmaların birgə tədbirlərinin keçirilməsinin önəmi vurğulanıb.

Azərbaycan Evində hər ay mütəmadi olaraq gerçəkləşdirilməsi nəzərdə tutulan yeni və fərqli layihələr barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, Almaniya, İtaliya, Polşa, Macarıstan, Türkiyə, Estoniya, Ukrayna, Gürcüstan və digər ölkələrdə də Azərbaycan evləri fəaliyyət göstərir.

*Samirə ƏLİYEVA, "Xalq qəzeti"*